*Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 23.04.2020-ci il tarixli, 16 saylı qərarı ilə təsdiq edilmişdir.*

# "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Tədbirlər Planı"nın icrası çərçivəsində Azərbaycan Mərkəzi Bankının təklif etdiyi əlavə dəstəkləyici tədbirlər

Koronavirus (COVİD-19) pandemiyasıvə enerji bazarlarında kəskin dalğalanmaların ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlığa mənfi təsirlərinin azaldılması istiqamətində Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən Tədbirlər Planı təsdiq edilmişdir. Tədbirlər Planında əhalinin məşğulluğunun və gəlirlərinin qorunması, sahibkarlara müxtəlif istiqamətlərdə, o cümlədən kredit öhdəliklərinin tənzimlənməsində dövlət dəstəyinin göstərilməsi ilə bağlı tədbirlər nəzərdə tutulmuşdur.

Bütövlükdə, bu tədbirlərin icrası, eləcə də pandemiya şəraitində biznesə və əhaliyə göstərilən maliyyə xidmətlərinin fasiləsizliyinin, eyni zamanda iqtisadiyyatın kreditləşməsinin davam etdirilməsi, habelə maliyyə xidmətlərinin istehlakçılarının hüquqlarının qorunması məqsədilə Azərbaycan Mərkəzi Bankı tərəfindən bir neçə istiqamətdə əlavə dəstəkləyici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

## I. Koronavirus pandemiyası dövründə əhalinin, iqtisadiyyatın və bank sektorunun requlyativ tədbirlərlə dəstəklənməsi

*Koronavirus pandemiyası və qlobal enerji bazarlarında kəskin dalğalanmalar nəticəsində iqtisadi aktivliyin azalması, biznes və ev təsərrüfatlarının gəlirlərinin aşağı düşməsi və ödəniş qabiliyyətinin pisləşməsi kredit-bank sektorunun maliyyə dayanıqlığına da təsir göstərməkdədir. Bununla əlaqədar, koronavirus pandemiyası ilə bağlı tətbiq edilən xüsusi karantin rejimindən birbaşa təsirlənən sahələrdə fəaliyyət göstərən sahibkarlara və fiziki*

*şəxslərə ipotekakreditləri üzrə müvəqqəti requlyativ yumşalmaların qəbul edilməsi zərurəti yaranmışdır. Qeyd olunmalıdır ki, bu tədbirlər müəyyən edilərkən beynəlxalq maliyyə institutları tərəfindən tənzimləyici orqanlara verilmiş tövsiyələr də nəzərə alınmışdır. Beynəlxalq maliyyə institutları requlyativ yumşalmalarda konservativ mövqe tutmağı, tənzimləyici qərarların maliyyə sektorunda problemlərin gizlədilməsinə imkan yaratmamasını və əsasən maliyyə sektorunda yığılmış sabitlik buferlərindən istifadə etməyi tövsiyə edir.*

**1. Fiziki şəxslərin (sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan) dəstəklənməsi**

- İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına 01 mart 2020-ci il tarixinə kimiverilmiş ipoteka kreditlərinin Fondun razılığı əsasında (bu məqsədlə fondun müvafiq normativ sənədlərinə dəyişiklik etməklə) 30 sentyabr 2020-ci ilədək restrukturizasiya olunması;
- İpoteka və Kredit Zəmanət Fondunun vəsaitləri hesabına 01 mart 2020-ci il tarixinə kimiverilmiş ipoteka kreditlərinin restrukturizasiya edilməsi zamanı banklar tərəfindən kreditin keyfiyyətinin pisləşdirilməməsi;
- Kredit öhdəliklərinin (əsas borc və faiz ödənişləri) tam və ya qismən gecikdirilməsi halında borcludan əlavə cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmamasının banklara tövsiyə edilməsi;
- 01 mart 2020-ci il vəziyyətinə keyfiyyəti qənaətbəxş olan və pandemiya ilə əlaqədar kredit borcunu gecikdirən borcalanlar üzrə neqativ məlumatların 30 sentyabr 2020-ci ilədək kredit bürosuna xüsusi qeydlə təqdim olunması (borcalanın kredit tarixçəsinin pisləşdirilməməsi).

**2. Pandemiyadan birbaşa təsirlənmiş sahibkarlıq subyektlərinin maraqlarının qorunması və dəstəklənməsi**

- 01 mart 2020-ci il tarixinə keyfiyyəti qənaətbəxş olan və Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planına müvafiq olaraq kredit faizləri subsidiyalaşdırılan sahibkarların kreditləri restrukturizasiya olunduqda borcalanın maliyyə vəziyyətindən asılı olmayaraq keyfiyyətinin 30 sentyabr 2020-ci ilədək pisləşdirilməməsi;
- 01 mart 2020-ci il tarixinə keyfiyyəti qənaətbəxş olan və dövlət fondlarının (Sahibkarlığın İnkişafı Fondu, Aqrar Kredit və İnkişaf Agentliyi) vəsaitləri hesabına verilmiş kreditlərin fondların razılığı əsasında (fondların müvafiq normativ sənədlərinə düzəliş edilməklə)30 sentyabr 2020-ci ilədək

restrukturizasiya olunmasıvə bu haldaborcalanın maliyyə vəziyyətindən asılı olmayaraq kreditin keyfiyyətinin pisləşdirilməməsi;

- Kredit öhdəliklərinin (əsas borc və ya faiz üzrə) gecikdirilməsi halında borcludan əlavə cərimə faizi, dəbbə pulu və digər ödənişlərin 30 sentyabr 2020-ci il tarixinədək hesablanmaması və tutulmamasının banklara tövsiyə edilməsi;
- 01 mart 2020-ci il  tarixinə keyfiyyəti qənaətbəxş olan və pandemiya ilə əlaqədar kredit borcunu gecikdirən borcalanlar üzrə neqativ məlumatların 30 sentyabr 2020-ci il tarixinədək kredit bürosuna xüsusi qeydlə təqdim olunması (borcalanın kredit tarıxçəsinin pisləşdirilməməsi).

**3. Bankların requlyativ yükünün azaldılması, kreditləşdirmə imkanlarının artırılması və maliyyə dayanıqlığının qorunması**

- Sistem əhəmiyyətli banklar üzrə məcmu kapitalın adekvatlıq əmsalının 01 yanvar 2021-ci ilədək 12%-dən 11%-dək azaldılması;
- Digər banklar üzrə məcmu kapitalın adekvatlıq əmsalının 01 yanvar 2021-ci ilədək 10%-dən 9%-ə azaldılması;
- 01 yanvar 2021-ci ilədək kontr-tsiklik kapital buferinin 0.5%-dən 0 faizə endirilməsi;
- Bankların kapitalının adekvatlıq göstəricilərinin hesablanması zamanı bazar və əməliyyat risklərinin 01 yanvar 2021-ci ilədək nəzərə alınmaması;
- Bankların öz vəsaitləri hesabına 2020-ci il 1 aprel tarixinə kimiverilmiş ipoteka kreditləri üzrə risk koofisentinin 100%-dən 50%-dək azaldılması;
- Bankların kapital mövqeyinin qorunması və gücləndirilməsi məqsədilə 2019-cu ilin nəticəsi üzrə dividend ödənişlərinin 30 sentyabr 2020-ci ilədək təxirə salınmasının və 2020-ci il üzrə aralıq dividend ödənilməməsinin banklara tövsiyə edilməsi;
- İstehlak kreditləri üzrə əlavə kapital tələblərinin 01 yanvar 2021-ci ilədək təxirə salınması;
- Kredit təşkilatlarında inspeksiyaların (hərtərəfli və tematik) təxirəsalınmaz reaksiya tələb edilən hallar istisna olmaqla 30 sentyabr 2020-ci ilədək tarixinədək təxirə salınması.

**4. Bəzi iqtisadi sahələrin kredit resurslarına çıxış imkanlarının artırılması**

- Tibbi ləvazimat və avadanlıqlar istehsalçılarına verilən kreditlərinin risk səviyyəsinin 100%-dən 20%-dək azaldılması.

## II. Koronavirus pandemiyası dövründə iqtisadi subyektlərin ödəniş xidmətləri üzrə xərclərinin azaldılması ilə bağlı

*Koronavirus pandemiyası və qlobal enerji bazarlarında kəskin dalğalanmalar nəticəsində iqtisadi aktivliyin azalması, biznes və ev təsərrüfatlarının gəlirlərinin aşağı düşməsi ödəniş xidmətlərindən istifadə göstəricilərinə mənfi təsir göstərəcəkdir. Nağdsız ödəniş xidmətlərinin stimullaşdırılması və bu xidmətlər üzrə xərclərin azaldılması məqsədilə aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulur:*

- Banklararası ödəniş sistemlərdə banklardan tutulan xidmət haqqlarının 30 sentyabr 2020-ci il tarixinədək 50%-ə qədər endirilməsi;
- Bankların müştərilərinə göstərilən ödəniş xidmətləri üzrə tariflərin anoloji qaydada azaldılmasının tövsiyə edilməsi;
- Sahibkarlıq subyektlərinin ödəniş kartları ilə ödənişlərinin qəbulu üzrə xərclərinin azaldılması məqsədilə ekvayer tariflərinin 30 sentyabr 2020-ci il tarixinədək 50%-ə qədər endirilməsinin tövsiyə edilməsi.

## III. Sığorta xidmətlərinin fasiləsizliyinin təmin edilməsi və sığorta olunanların hüquqlarının qorunması ilə bağlı

*Xüsusi karantin rejimi şəraitində iqtisadi aktivliyin azalması sığorta xidmətlərinə çıxışın məhdudlaşmasına gətirib çıxarmışdır.Yaranmış şəraitdə sektorun topladığı sığorta haqlarının həcmində azalma müşahidə edilməkdədir. Sığorta olunanlarla sığortaçılar arasında fiziki təmasın minimuma enməsisığorta tələblərinin idarə olunmasını çətinləşdirmişdir. Eyni zamanda, satışların azalması fonunda sığorta ödənişlərinin davam etməsi sığortaçıların likvidlik idarəetməsini mürəkkəbləşdirmişdir. Bütün bunları nəzərə alaraq aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:*

1. **Sığorta xidmətlərinə çıxışın təmini və sığortaçılara elektron vasitələrdən effektiv istifadənin tövsiyə edilməsi**
    - Zərərlərin tənzimlənməsi ilə bağlı sığortalıların müraciətlərinin elektron poçt və elektron formada qəbul edilməsi (hadisələr barədə video və foto görüntülər daxil olmaqla);
    - Könüllü sığorta müqavilələri üzrə xüsusi karantin rejimindən birbaşa təsirlənən sığortalılara sığorta haqlarının ödənilməsində 30 sentyabr 2020-ci il tarixinə kimimöhlətin verilməsi;
    - Sığortaçılarda biznes proseslərinin pandemiya ilə əlaqədar yeni əməliyyat şəraitinə tam uyğunlaşdırılması üçün lazımı idarəetmə və texnoloji tədbirlərin görülməsi;

- Könüllü sığorta müqavilələrinin elektron formada bağlanmasının sığortaçılar tərəfindən təmin edilməsi (Mülki Məcəllənin 899, 903.7-ci maddələrinin və “Sığorta fəaliyyəti haqqında” Qanunun tələbləri nəzərə alınmaqla);
- Sığortaçıların öz internet səhifələrində xüsusi karantin müddətində iş rejimi ilə bağlı məlumatın və zərərlərin tənzimlənməsi ilə bağlı müvafiq prosedurlarını açıqlaması;
- Sığortalıların hüquqlarının qorunması məqsədi ilə sığortaçılarda qaynar xəttin fasiləsiz işlək olması, habelə sığortalıların video zənglər vasitəsilə qəbulunun təmin edilməsi.

**2. Sığortaçılara müvəqqəti requlyativ tətillərin verilməsi**

- Xüsusi karantin rejimindən birbaşa təsirlənən sığortalılar üzrə 01mart 2020-ci il tarixdən sonra yaranmış və 90 günü aşmış debitor borclarının sığorta ehtiyatıvə sığortaçının öz vəsaitlərinin hesablanmasında 01 yanvar 2021-ci ilədək nəzərə alınması;
- Sığortaçılarda səyyar yoxlamaların (növbəti) təxirəsalınmaz reaksiya tələb edilən hallar istisna olmaqla (növbədənkənar) 30 sentyabr 2020-ci ilədək təxirə salınması.

**3. Sığortaçılara likvidliyin idarə edilməsində dəstəyin göstərilməsi və maliyyə dayanıqlığının qorunması**

- İcbari Sığorta Bürosuna təqvim haqqlarının ödənişinə 30 sentyabr 2020-ci ilədəkmöhlət verilməsi üçün İSB-yə tövsiyə edilməsi;
- Kapital mövqeyinin qorunması və gücləndirilməsi məqsədilə 2019-cu ilin nəticəsi üzrə dividend ödənişlərinin 30 sentyabr 2020-ci ilədək təxirə salınmasının və 2020-ci il üzrə aralıq dividend ödənilməməsinin sığortaçılara tövsiyə edilməsi.

## IV.Koronavirus (COVID-19) pandemiyasının kapital bazarı iştirakçılarına mənfi təsirinin azaldılması ilə bağlı

*Xüsusi karantin rejimində iqtisadi aktivliyin azalması şəraitində investisiya şirkətlərinin qiymətli kağızlarla əməliyyatlarının həcminin azalması müşahidə edilməkdədir. Emitentlər tərəfindən planlaşdırılan istiqraz emissiyaları təxirə salınır, idarəetmədə olan müştəri portfellərinin həcmi kiçilir. Bu kapital bazarı iştirakçılarının maliyyə göstəricilərinə, xüsusilə gəlirliyinə mənfi təsir göstərir.*

*Yaranmış vəziyyətin kapital bazarı vasitəçilərinə, emitentlərə və investorlara təsirinin azaldılması və əlavə stimulların verilməsi məqsədilə qiymətli kağızlar bazarında beynəlxalq standartları müəyyən edən Qiymətli Kağızlar Komissiyalarının Beynəlxalq Təşkilatının (IOSCO) tövsiyələri də nəzərə alınmaqla Mərkəzi Bank tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:*

1. **Qiymətli kağızlar bazarı iştirakçılarına requlyativ tətillərin verilməsi**
    - İnvestisiya şirkətlərinin kapital tələblərinin pozulması müşahidə edildikdə, Mərkəzi Bank tərəfindən müvafiq təsir tədbirlərinin görülməsinin 01 yanvar 2021-ci tarixinədək təxirə salınması;
    - İnvestisiya şirkəti və fond birjası tərəfindən illik audit olunmuş maliyyə hesabatlarının Mərkəzi Banka təqdim olunmasının və ictimaiyyətə açıqlanmasının 30 sentyabr 2020-ci il tarixinədək uzadılması;
    - Qiymətli kağızları kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış emitentlər tərəfindən ictimaiyyətə açıqlanan illik və yarımillik hesabatların açıqlanmasının 1 (bir) ay müddətinə uzadılması;
    - Qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin (investisiya şirkəti, fond birjası) fəaliyyətinin yoxlanılmasının 30 sentyabr 2020-ci ilədək təxirə salınması.

2. **Qiymətli kağızlar bazarı iştirakçılarına güzəştlərin verilməsi**
    - Fond birjasında səhmlərin və istiqrazların təkrar bazarında bağlanan əqdlərin habelə repo əməliyyatlarının qeydiyyatı üzrə Milli Depozit Mərkəzinə ödənilən tariflərin 30 sentyabr 2020-ci il tarixinədək ləğv edilməsi;
    - Bakı Fond Birjasında 01 aprel 2020-ci il tarixindən 01 yanvar 2021-ci il tarixinədək listinqə daxil olan korporativ istiqrazlar üzrə listinq tariflərinin ləğv edilməsi;
    - Fond birjasında dövlət istiqrazları, Mərkəzi Bankın notları və ipoteka istiqrazları ilə bağlanan təkrar bazar əqdləri üzrə hesablaşmaların 30 sentyabr 2020-ci il tarixinədək "T+1" rejimindən "T+0" rejiminə keçirilməsi;
    - Qiymətli kağızların kütləvi təklif üsulu ilə fond birjasında yerləşdirilməsi zamanı Bakı Fond Birjası tərəfindən tələb olunan sənədlərin dairəsinin 01 yanvar 2021-ci il tarixinədək minimallaşdırılması (yalnız qiymətli kağızların dövlət reyestrindən çıxarış və emissiya prospekti tələb olunmaqla).